# "Üç şagirdi Prezident təqaüdçüsü olan MÜƏLLİM"

"İbtidai sinif müəllimi olduğum sinif qəbul imtahanlarında yaxşı nəticə göstərdi. Hamısı ali məktəbə qəbul olunan o sinifdən 6 nəfəri 600-dən yuxarı bal toplayıb. Həmin uşaqlardan 3 nəfəri Prezident təqaüdçüsü oldu. Bu nəticə ölkədə ilk dəfə idi və hələ də təkrarlanmayıb".

2014-cü ildən Əməkdar müəllim olan Püstə Mehtiyeva onu müəllimlikdə zirvəyə daşıyan bu uğurun hekayəsini indi belə xatırlayır. Müəllimliyə yolunun düşməsi isə anasının arzusu ilə baş verib. Anası sayəsində bu peşəni sevib, sonra seçib: "Ən yaxşı müəllim kimdir?" deyə soruşsalar "Anam" deyərəm. Qardaşımla ikimizin də həyatımızda əhəmiyyətli rol oynadı və bizi müəllimliyə həvəsləndirdi. Özü müəllim olmaq istəyib, oxuya bilməyib. Müəllimliyə olan sevgisi elə bil bətnindəykən mənə keçib. Elə hiss etmişəm ki, sanki anadan müəllim olaraq doğulmuşam. Bu gün məhz anama minnətdaram ki, hər evdə işığım var".

Bəlkə müəllim kimi doğula bilər, amma heç nə etmədən müəllimlikdə zirvəyə çıxmaq mümkün deyil. Elə isə, yaxşı müəllim necə olur?

43 ilin müəllimi Püstə Mehtiyeva deyir ki, onu fərqləndirən fənninə və müəllimliyə münasibətidir: "Xalqımın ilk gündən xidmətçisiyəm. Sinfə ilk gün necə girdimsə, bu gün də eyni həyəcan, eyni məsuliyyəti hiss edirəm. Sadəcə hərf, söz öyrətmirəm, mən onlara ədəbiyyatımızı, incəsənətimizi, mədəniyyətimizi, tariximizi, əvvəldən-axıra Azərbaycanı öyrədirəm. Bir vətəndaş kimi yetişdirir, şəxsiyyət olmaları istiqamətində yönləndirirəm. Qoyduğum bünövrə ilə elə inkişaf edirlər ki, birində pis vərdişə rast gəlməzsiniz. Minimum bilik, maksimum bacarıqlar aşılayıram, vətənini tanıdıram hər birinə. Vətənini tanıyan mütləq sevər, sevən isə əsl vətəndaş, vətənpərvər olar. Ona görə də hər buraxılışım barəsində yuxarı siniflərdə onlara dərs keçən fənn müəllimlərindən daim xoş sözlər eşidirəm. Tarix müəllimi, ədəbiyyat müəllimi yaxınlaşıb: "Ay müəllim, bu uşaqlar hər şeyi bilir", - deyəndə gözümə işıq gəlir, dünyanın ən böyük mükafatlarını almış kimi oluram".



Püstə müəllim "ibtidailərin" və onların valideynlərinin vazkeçilməzi olub: "Bunun nəticəsidir ki, bacarıqları ilə öyündüyüm, həyatdakı mövqeləri ilə qürur duyduğum çoxsaylı şagirdlərim var. Mən onları unutmadığım kimi, onlar da məni daim xatırlayırlar.

1961-ci il doğumlu Əməkdar müəllimimiz Bərdənin Həsənqaya kəndində tam orta məktəbi bitirib. Sonra Şuşa Pedaqoji Beynəlmiləl Texnikumunda təhsilini fərqlənmə ilə başa vurub. Bu təhsillə kifayətlənməyib H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunda ali təhsil alıb.

Müəllimliyə Saatlı tam orta məktəbində (hazırda Raqif Orucov adına tam orta məktəb) başlayıb. 1992-ci ilə qədər davam edən bu yolda özü üçün çoxlu unudulmaz anlar toplayıb və məktəbin sevilən müəlliminə çevrilib. Həmin il yaşayış yerini də dəyişib, məktəbini də. Bərdə şəhərindəki Şəhid Alı Mustafayev adına 5 nömrəli tam orta məktəbdə dərs deməyə başlayıb. 2004-cü ildən isə Z.Əliyeva adına Texniki Fənlər Təmayüllü Liseymektəbin müəllimidir.

Müəllim kimi uğurları çoxdur: Elm və Təhsil Nazirliyinin "1 şagird, 1 kompüter" layihəsinə də qatıldım. Riyaziyyatı çox sevirəm və bu layihədə məhz riyaziyyat üzrə nominant oldum". 2010-cu ildə "İlin ən yaxşı müəllimi", 2012-ci ildə "Elektron təhsil" müsabiqələrinin qalibi olub.

Sadəcə şagird yetişdirməyib, yetişdirdiyi müəllimlərin də sayı hesabı yoxdur: "Həmişə yanımda təcrübəçi olub. Ali məktəb məzunlarına müəllim olmağı öyrətmişəm. Elə indi də bir gənc qızım hazırlaşır müəllimliyə.

65 yaşı olan kimi Püstə müəllim gedəcək, onu gənc, hazırlıqlı müəllimlər əvəzləyəcək. Onların hər biri müəllimlik dərsi aldıqları Püstə Mehtiyevadan öyrəndiklərini tətbiq edəcək və böyüyüb "Əməkdar müəllim" olacaqlar...

**Ruhiyyə DAŞSALAHLI**

Azərbaycan müəllimi.- 2023.- 15 sentyabr.- S.3.